

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 noyabr 2021-ci il №87 (2595) https://mod.gov.az Qiymməti 30 qəpik

# VIII Qlobal Bakı Forumu işə başlayıb

## Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılış mərasimində çıxış edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə noyabrın 4-də "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumu işə başlayıb.*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

VIII Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail Serageldin** dedi: Cənab Prezident, cənab prezidentlər, zati-aliləri, xanımlar və cənablar. Böyük şərəf hissi ilə sizi bu açılış mərasimində salamlayıram. Biz bir daha məmnunluqla Prezident, zati-aliləri cənab İlham Əliyevi Qlobal Bakı Forumunda salamlayırıq.

Bu il biz bu tədbiri noyabr ayında keçiririk. Adətən Bakıda bu Forum yaz aylarında keçirilir. Məhz Prezidentin xeyirxahlığı sayəsində pandemiya səbəbindən bu gün biz bu dövrdə tədbiri keçiririk. Bu il keçirilən Forum bir sıra mövzulara yönəlib. Biz pandemiyanın üzə çıxardığı təcrübədən öyrənmək istəyirik, çalışırıq müəyyən edək ki, necə mübarizə aparmalıyıq. Lakin hələ görüləcək işlər çoxdur. Bu mərhələyə qədər bəzi məsələləri müzakirə etmək fürsətimiz oldu. Bununla belə, biz müqavimətlə bağlı olan bəzi səsləri eşidirik, gələcəklə bağlı olan bəzi fikirlərin şahidi oluruq. Əlbəttə ki, bununla bağlı qadınların müxtəlif hüquqları uğrunda mübarizə aparmış mühüm şəxslərin təcrübəsini də nəzərdən keçirəcəyik.

Bu gün biz öz müdrikliyi, xüsusi bağlılığı ilə seçilən şəxsiyyətin burada olmağını qeyd edirik. Azərbaycan Prezidenti cənab İlham Əliyev buradadır. Böyük məmnuniyyətlə sözü Sizə veririk. Buyurun, cənab Prezident. Cənab Prezident, Sizin çıxışınızı səbirsizliklə eşitmək istəyirik.

Prezident İlham Əliyev Forumun açılış mərasimində çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli dostlar, hörmətli xanımlar və cənablar, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin hörmətli həmsədrləri, hörmətli iştirakçılar. Sizin hamınızı salamlayıram. Bizimlə olduğunuza görə sizə təşəkkürümü bildirmək istəyirəm.

Mərkəzin həmsədrləri ilə 2021-ci ildə keçiriləcək illik Qlobal Bakı Forumunu müzakirə edəndə biz burada - Bakıda belə geniş təqdimatların olacağını heç təsəvvürümüzə belə gətirə bilməzdik. Bu, birinci növbədə onu göstərir ki, COVID ilə bağlı vəziyyət yaxşılaşır. İkinci növbədə isə, əlbəttə ki, həmçinin onu göstərir ki, siz bu tədbirə böyük əhəmiyyət verirsiniz. Çünki Qlobal Bakı Forumu qlobal siyasətə aid təxirəsalınmaz və vacib məsələlərin müzakirəsi baxımından aparıcı platformalardan birinə çevrilib.

Əvvəlcə, mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə, xanım Prezident Vayra Vike-Freyberqaya və cənab Serageldinə Mərkəzə mükəmməl rəhbərlik etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Hətta pandemiya dövründə onların fəaliyyəti çox nəzərə çarpırdı. Məhz onların rəhbərliyi, Mərkəzə və onun ideallarına sadiqliyi sayəsində bu Mərkəz, qeyd etdiyim kimi, aparıcı beynəlxalq təsisatlardan birinə çevrildi. Mən, həmçinin İdarə Heyətinin üzvlərinə onların verdiyi töhfəyə görə təşəkkürümü bildirmək istəyirəm. Həmçinin daimi üzvlərə və iştirakçılara da təşəkkür edirəm.

İdarə Heyətinin üzvləri ilə dünən müzakirə etdiyimiz kimi, bura sanki böyük və mehriban ailədir. Hesab edirəm ki, bu da bizim uğurumuzun səbəblərindən biridir. Sadəcə, bu gün olan iştirakçıların, çıxışçıların, Foruma müraciət edəcək mötəbər şəxslərin siyahısına baxmaq kifayət edər ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nisbətən qısa müddətdə ziyalıların, dövlət məmurlarının, siyasətçilərin, jurnalistlərin, dövlət xadimlərinin və vətəndaş cəmiyyəti üzvlərinin biliklərini, təcrübəsini və baxışını toplayan, böyük potensialı olan çox azsaylı aparıcı beynəlxalq təsisatlardan birinə çevrildiyini deyək. Beləliklə, bugünkü Qlobal Bakı Forumunda gündəlikdə duran təxirəsalınmaz məsələlər müzakirə olunacaq.

Lakin bu məsələlərin müzakirəsindən öncə məmnunluq hissi ilə bildirmək istəyirəm ki, dünən mənə bu il 880-ci ildönümünü qeyd etdiyimiz Nizamiyə həsr olunmuş iki kitab təqdim edilmişdir və mənim Prezident Fərmanıma əsasən bu dahi Azərbaycan şairinin xatirəsini uca tutmaq üçün bu il Azərbaycanda "Nizami Gəncəvi İli" elan olunub. Bugünkü Forumun gündəliyi çox genişdir. Lakin mən, əvvəlcə, bir neçə məsələyə toxunmaq istərdim.

Birincisi, əlbəttə ki, pandemiya ilə bağlıdır. Çünki bu indi qlobal gündəlikdə bir nömrəli məsələdir. Biz pandemiya, bəziləri isə postpandemiya dövrü haqqında danışır. Bizim artıq postpandemiya dövründə olduğumuz aydın deyil. Çünki müxtəlif ölkələr bu məsələyə fərqli yanaşır. Sizə məlumat vermək istəyirəm ki, Azərbaycan bu xəstəliyin, böhranın baş qaldırdığı vaxtdan, lap əvvəldən həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə çox fəal addımlar atmışdır. Biz bu ilin yanvarın 18-dən regionda ilk ölkələrdən biri olaraq peyvəndləməyə başladıq. Bu vaxta qədər yaşı 18-dən yuxarı olan əhalinin 60 faizindən çoxu iki dozanı alıb. Nisbətən qısa müddət ərzində biz ümumi çarpayı sayı demək olar ki, 4 min olan 13 yeni dövlət xəstəxanası açdıq və ümumilikdə pandemiya ilə mübarizə aparmaq üçün 46 dövlət xəstəxanası ayrılmışdır. İndi bizdə qapanma yoxdur. Vəziyyət nəzarət altındadır. Yeganə məhdudiyyət ondan ibarətdir ki, biz daxili məkanlarda maska taxmaq məcburiyyətindəyik. Ümidvaram ki, biz vəziyyəti nəzarət altında saxlaya biləcəyik.

Eyni zamanda, biz, həmçinin əvvəllər olan qapanmaların yükünü azaltmaq üçün ciddi tədbirlər gördük. Biz işini itirmiş, qapanmalardan əziyyət çəkmiş insanlar üçün 2020-ci və 2021-ci illərdə sosial-iqtisadi yardım paketini ayırdıq və paketin ümumi dəyəri 2,9 milyard ABŞ dolları idi. Bu vəsait dövlət büdcəsindən maliyyələşmişdir. Biz bunu etməyə davam edəcəyik, çünki biz özlərini tamamilə yeni bir vəziyyətdə görən insanların üzərinə düşmüş yükü azaltmalıyıq. Biz əsasən iki peyvənddən istifadə edirik. "Sinovac" və "Pfizer"dən. Qeyd etdiyim kimi, peyvəndləmə səviyyəsi yüksəkdir. Bu, əlbəttə ki, dövlət siyasəti sayəsində mümkün olmuşdur. Eyni zamanda, bildirmək istərdim ki, əhalimizin bu məsələyə çox məsuliyyətlə yanaşması bizdə məmnunluq doğurur və peyvəndləmə məcburi deyil. Bizdə hər hansı bir antipeyvəndləmə kampaniyası və ya hətta antipeyvəndləmə tendensiyası yoxdur. Azərbaycan xalqı peyvəndləmənin vacibliyini anlayır və bu, bizim işimizi xeyli asanlaşdırır. Qlobal miqyasda Azərbaycan, həmçinin çox fəal addımlar atıb. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının hazırkı sədri olaraq ötən il bizim təşəbbüsümüzlə aprel və may aylarında hər iki təşkilatın COVID-ə həsr olunmuş xüsusi Zirvə görüşü keçirildi.

Qoşulmama Hərəkatının Sammitində biz BMT-nin Baş Assambleyasının COVID-ə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdik və bu təşəbbüs beynəlxalq birliyin mütləq əksəriyyəti tərəfindən dəstəklənmişdir və bu xüsusi sessiya keçən ilin 3 və 4 dekabr tarixlərində baş tutdu.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçular təltif edilib

Noyabrın 5-də Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi ilə bağlı Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş 805 hərbi qulluqçu ölümündən sonra orden və medallarla təltif edilib.

Hərbi qulluqçulardan 136 nəfəri "Azərbaycan Bayrağı", 165 nəfəri 3-cü dərəcəli "Rəşadət", 28 nəfəri 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenlərinə layiq görülüb. Bundan başqa, 5 nəfər "Vətən uğrunda", 7 nəfər "İgidliyə görə", 17 nəfər "Cəsur döyüşçü", 1 nəfər "Döyüşdə fərqlənməyə görə", 143 nəfər "Suqovuşanın azad olunmasına görə", 27 nəfər "Cəbrayılın azad olunmasına görə", 31 nəfər "Xocavəndin azad olunmasına görə", 131 nəfər "Füzulinin azad olunmasına görə", 19 nəfər "Qubadlının azad olunmasına görə", 52 nəfər "Şuşanın azad olunmasına görə", 30 nəfər "Kəlbəcərin azad olunmasına görə", 3 nəfər "Ağdamın azad olunmasına görə", 10 nəfər isə "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

# VIII Qlobal Bakı Forumu işə başlayıb

## Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılış mərasimində çıxış edib

**(Əvvəli 1-ci səhifədə)**

Bu, bizim qlobal məsələlərin müzakirəsinə olan töhfəmiz idi. Eyni zamanda, biz BMT-nin İnsan Hüquqları Şurasında peyvəndlərlə bərabər və universal çıxış və peyvəndlərin ədalətli bölgüsünə dair təşəbbüs irəli sürdük. Biz qlobal səviyyədə "peyvənd millətçiliyi" və vaksinlərin ədalətsiz bölgüsü haqqında danışan ölkələrdənik. Bəzi ölkələr artıq peyvəndin üçüncü dozasının tətbiqini planlaşdırır. Digər ölkələrdə isə vaksinasiyanın səviyyəsi aşağıdır. Beləliklə, biz bərabər imkanların yaradılması üçün bu məsələni müzakirə etməliyik.

Bununla yanaşı, qeyd etmək istəyirəm ki, bizim təşəbbüsümüzlə COVID-19-un müalicəsi ilə bağlı məlumat bazası yaradılıb və Ümumdünya Səhiyyə Təşkilatı Qoşulmama Hərəkatına üzv ölkələrdə həmin məlumat bazasından istifadə edir. Bu isə öz növbəsində ÜST-yə öz dəstəyini düzgün planlaşdırmağa və proqnozlaşdırmağa kömək edir. Qoşulmama Hərəkatının sədri qismində biz 30-dan artıq ölkəyə maliyyə və humanitar yardımı etmişik. Biz təmənnasız olaraq bir neçə ölkəni peyvənd dozaları ilə təmin etmişik. Eyni zamanda, biz yoxsul ölkələrin dəstəklənməsi üçün Ümumdünya Səhiyyə Təşkilatına könüllü olaraq 10 milyon dollar həcmində maliyyə töhfəsi etmişik. Bunlar bizim qlobal səviyyədə atdığımız addımlardır. Əlbəttə, beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsi və dünyanın aparıcı dövlətlərinin məsuliyyətli yanaşma nümayiş etdirməsi bu xəstəliyin öhdəsindən gəlməyə yardım edəcək.

Toxunmaq istədiyim digər bir mövzu, Birinci Bakı Qlobal Forumundan başlayaraq hər yeddi Forumda haqqında danışdığım mövzudur - Ermənistan-Azərbaycan münaqişəsi. Bu gün isə demək istəyirəm ki, münaqişə həll edilib. Azərbaycan özü münaqişəni həll etdi. Azərbaycan 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri özü yerinə yetirdi. Təəssüflər olsun ki, həmin qətnamələr 27 il ərzində kağız üzərində qaldı və özünümüdafiə hüququnu ehtiva edən BMT Nizamnaməsinin 51-ci maddəsindən istifadə edən Azərbaycan özü ərazi bütövlüyünü bərpa etməsə idi, həmin qətnamələr növbəti 27 il ərzində də kağız üzərində qalacaqdı. Azərbaycan beynəlxalq hüquqi çərçivəni də istifadə etdi, çünki yalnız BMT Təhlükəsizlik Şurası deyil, digər aparıcı beynəlxalq təsisatlar Azərbaycanın ərazilərinin işğalı ilə bağlı bənzər qətnamə və qərarlar qəbul edib. BMT-nin Baş Assambleyası, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası münaqişə ilə bağlı müxtəlif dövrlərdə buna bənzər qərar və qətnamələr qəbul edib ki, ötən il ərazilərimizi azad edərkən gördüyümüz işlər buna tam uyğun idi.

Təəssüf ki, Ermənistan yalnız status-kvonu möhkəmləndirmək, danışıqlar formatını yalnız münaqişənin əbədi dondurulması aləti kimi istifadə etməyə cəhd edirdi. Əvvəlki illərdə Ermənistan hakimiyyəti ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin işğal edilmiş ərazilərin boşaldılması yolu ilə həllinə nail olmaq istiqamətində işləmək görüntüsü yaradırdısa, son bir neçə ildə Ermənistan rəhbərliyi işğal olunmuş torpaqların bir qarışını belə qaytarmayacağını artıq açıq şəkildə bəyan edirdi. Bununla bağlı kifayət qədər sübut var. Təkcə Ermənistanın hazırkı baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərində iki il əvvəl verdiyi bəyanatı qeyd etmək kifayət edər - "Qarabağ Ermənistandır və nöqtə". Bu, əslində, danışıqların sonu idi. Birincisi, bu ziddiyyətli və yalan bəyanat idi, çünki Ermənistan rəhbərliyi iddia edirdi ki, Qarabağ "müstəqil dövlətdir". Halbuki Ermənistan da daxil olmaqla, dünyanın heç bir ölkəsi onu tanımamışdı. Digər tərəfdən isə onlar deyirdilər ki, "Qarabağ Ermənistandır". Yəni bu ziddiyyət Ermənistanın ötən il üzləşdiyi rüsvayçı məğlubiyyətlə nəticələnən təzadlı siyasətinin göstəricisi idi.

Beləliklə, bu qəbildən olan bəyanatlar danışıqların sonu oldu. Mənim təəssüratıma əsasən, ATƏT-in Minsk qrupunun həmsədrləri də bu bəyanatdan təəccüblənmiş və pərt olmuşdular, çünki artıq onların görə biləcəyi bir iş qalmamışdı.

Digər bir bəyanat, Ermənistanın o zamankı müdafiə naziri tərəfindən verilmişdir. O, açıq şəkildə bəyan edirdi ki, Ermənistan "yeni ərazilər uğrunda yeni müharibə"yə hazırlaşır. Yəni, Azərbaycanın daha çox ərazisini işğal etməklə bağlı aşkar hədələmə. Təəssüflər olsun ki, beynəlxalq ictimaiyyət, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri səssiz qaldılar, bunu pisləmədilər və bunun qəbuledilməz olması ilə bağlı hətta mesaj belə vermədilər. Ermənistan rəhbərliyinin atdığı bir sıra digər addımlar və verdiyi bəyanatlar Azərbaycanı təhrik etməyə yönəlmişdi. Mən separatçıların qondarma "prezidentinin" Şuşada keçirilən dırnaqarası "inauqurasiyasını" qeyd edə bilərəm. Bu, azərbaycanlıların hisslərinin açıq şəkildə təhqiri idi.

Mən, həmçinin separatçıların dırnaqarası "parlamentinin" Xankəndidən Şuşaya keçirilməsi haqqında Ermənistanın qərarı barədə deyə bilərəm. Bu, azərbaycanlıların hisslərinə növbəti təhqir idi. Ermənistan rəhbərliyi başa düşməli idi ki, xalqımızın hisslərini təhqir etmək iqtidarında deyillər. Hər səbrin hüdudu var.

Sonra, 2020-ci ilin iyulunda onlar sərhəddə açıq hərbi təxribata əl ataraq, mülki şəxslərimizi və hərbçilərimizi qətlə yetirdilər. 2020-ci ilin avqustunda diversiya qrupu göndərdilər ki, terror aktı törətsinlər. O qrup zərərsizləşdirildi. Son olaraq sentyabrda onlar Azərbaycanın dinc kəndlərini atəşə tutmağa başladılar.

Vətən müharibəsi adlandırdığımız İkinci Qarabağ müharibəsi 44 gün çəkdi və Ermənistan ordusunun tam məğlubiyyəti ilə bitdi. Ermənistan bizim şərtlərimizi qəbul etməyə məcbur edildi. Müharibənin ilk günlərində deyirdim ki, Ermənistanın baş naziri mənə işğal olunmuş ərazilərdən çıxmaq tarixlərini verəndən sonra biz dayanmağa hazırıq.

Ermənistan rəhbərliyinə təxminən 7000 qurban və 44 gün lazım gəldi ki, özünün tam acınacaqlı vəziyyətdə olduğunu başa düşsün. Noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktını imzaladı və müharibə bitdi. Biz öz sözümüzü yerinə yetirdik. İşğal olunmuş qalan ərazilərdən çıxmaq cədvəli verildikdə müharibə dayandı. Dörd gün sonra Azərbaycan xalqı tarixi Qələbəmizin birinci ildönümünü qeyd edəcək.

Azad edilmiş ərazilərdə biz nəyi gördük? Tam dağıntılar baş verib, bir dənə olsun bina salamat qalmayıb. İşğal illəri ərzində onlar bütün tarixi abidələri, 67 məsciddən 65-ni dağıdıblar. Evləri, həyətləri, ictimai binaları və sair tikililəri yerlə-yeksan ediblər. Bu, barbarlığın sübutudur.

Hazırda biz azad edilmiş əraziləri fəal şəkildə bərpa edirik. Genişmiqyaslı bərpa proqramına başlanılıb. Əminəm ki, qısa müddət ərzində biz Ermənistanın işğalından əziyyət çəkmiş məcburi köçkünləri, bir milyondan çox insanı həmin yerlərə qaytara biləcəyik. Müharibə və onun nəticələri onu göstərdi ki, gec və ya tez ədalət zəfər çalır. Siz öz məqsədinizə sadiq olmalısınız, yaxşı hazırlaşmalısınız, beynəlxalq hüquq çərçivəsinə malik olmalısınız və insanların yüksək səviyyədə iradəli olmasına nail olmalısınız. Bütün həmin meyarlar, o cümlədən hərbi imkanlarımız münaqişənin həllində əsas amil oldu. Hazırda münaqişə bitib və qeyd etdiyim kimi, yenidənqurma başlayıb. İndi biz postmünaqişə vəziyyətindəyik və biz Ermənistana bir sıra təkliflər etmişik ki, sülh müqaviləsi üzərində işləməyə başlayaq, çünki biz müharibə deyil, sülh, gələcək haqqında danışmaq istəyirik.

Əfsuslar olsun ki, bu təkliflə hələ də cavab verilməyib. Eyni zamanda, biz hər iki ölkənin ərazi bütövlüyünü tanımaqla, dövlət sərhədlərimizin delimitasiyası və demarkasiyası üzərində işə başlamağı təklif etdik. Bu, həmçinin beynəlxalq hüquq normalarına və normal davranışa uyğundur. Bu təklifə də hələ baxılmayıb.

Təxminən 30 illik işğalın əziyyətlərinə, azad edilmiş ərazilərdə vandalizm və barbarlığa baxmayaraq, Azərbaycan maksimal konstruktivlik nümayiş etdirir. Biz gələcəyə nəzər salmalıyıq. Biz regionun təhlükəsiz, proqnozlaşdırılan və genişmiqyaslı əməkdaşlığa hazır olmasını təmin etməliyik. Bu barədə müxtəlif təkliflər var. Ola bilsin, siz onlar haqqında eşitmisiniz. Hesab edirəm ki, hər şey Ermənistanın mövqeyindən asılı olacaq, çünki bizim mövqeyimiz tam aydındır. Bu gün bir daha deyirəm ki, biz hazırıq, sülh danışıqlarına başlamağa, sülh razılaşması üzərində çalışmağa, səhifəni çevirməyə və sərhədin delimitasiyasına hazırıq. Görəcəksiniz ki, Ermənistandan cavab gəlməyəcək. Demək olar ki, bir ildir susurlar. Hesab etmirəm ki, hazırda onlar Azərbaycanın konstruktiv təklifinə qarşı çıxmaq mövqeyində deyillər. Əgər, onlar əvvəlki danışıqlar illərində bizi dinləsəydilər, özlərini normal insan kimi aparsaydılar, bugünkü vəziyyətə düşməzdilər.

Vaxtınızı çox almayaraq, digər sonuncu məsələni də qeyd etmək istərdim, çünki o, ötən ilin kölgəsində qalan məsələ oldu. Lakin o, tək bizim üçün deyil, bütün region üçün əhəmiyyətlidir. Bu, Cənub Qaz Dəhlizinin tikintisinin başa çatdırılmasıdır. 2020-ci il dekabrın 31-də həmin layihənin sonuncu hissəsi - Trans-Adriatik boru kəməri istismara verilmişdir. Bu, Azərbaycan, qonşularımız və Avropa üçün həqiqətən tarixi nailiyyətdir, çünki o, Avropanın enerji təhlükəsizliyinin mühüm meyarıdır. O, şaxələndirmənin mühüm alətidir. Cənub Qaz Dəhlizinə gəldikdə isə, söhbət nəinki marşrutların, o cümlədən mənbələrin şaxələndirilməsindən gedir. Azərbaycanın böyük qaz ehtiyatlarına söykənən təbii qazın yeni mənbəyi artıq Avropa bazarındadır. Bu il yanvarın 1-dən etibarən oktyabrın 31-dək, yəni on ay ərzində, Azərbaycan bu marşrutla 14 milyard kubmetrdən çox təbii qazı beş ölkəyə ixrac edib - Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan və Bolqarıstan. Bu həcmin təxminən yarısı Avropa İttifaqının istehlakçıları tərəfindən istifadə edilmişdir. Azərbaycan qazı ilə təchiz edilən ölkələrdə nə qaz böhranı, nə qiymət böhranı və nə də soyuqdan donma var. Bu, göstərir ki, Cənub Qaz Dəhlizi Avropa üçün əsl enerji təhlükəsizliyi layihəsidir. Azərbaycan məsuliyyətli ölkə, hasilatçı və ixracatçı kimi, - hazırda tək nefti deyil, qazı da ixrac edirik, - gələcəkdə enerji təhlükəsizliyi məsələlərində çox mühüm rol oynayacaq.

Bununla mən çıxışımı bitirmək istəyirəm və çox vaxt almamaq məqsədilə sizə bizimlə olduğunuza görə bir daha təşəkkürümü bildirirəm və Foruma uğurlar arzulayıram.

Sağ olun.

* * *

Sonra VIII Qlobal Bakı Forumu öz işini müxtəlif mövzularda müzakirələrlə davam etdirdi.

Qeyd edək ki, sayca 8-ci olan və noyabrın 6-dək davam edəcək Bakı Forumunda qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, eləcə də digər nüfuzlu qonaqlar iştirak edirlər. Hibrid formatda təşkil edilən tədbirə 300-ə yaxın qonaq canlı və onlayn qaydada qoşulub.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi qulluqçuların xidmət və sosial şəraitinin yaxşılaşdırılması işləri davam etdirilir





*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda hərbi qulluqçuların sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması məqsədilə azad edilən ərazilərdə yeni hərbi şəhərciklərin açılışı davam etdirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əsaslı təmir olunan hərbi hissənin açılışında iştirak edən Müdafiə nazirinə məruzə edilib ki, şəhərcik hərbi qulluqçuların bütün zəruri ehtiyaclarının tam təmin edilməsi üçün müasir avadanlıq, mebel və inventarlarla təchiz olunub. Mərkəzi istilik sistemi quraşdırılan hərbi hissədə silah otağı, yataqxana, yeməkxana, tibb məntəqəsi, ərzaq və əşya anbarları, hamam-camaşırxana-qazanxana kompleksi, avtomobil parkı mövcuddur. Ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar quraşdırılıb.

Hərbi qulluqçuların asudə vaxtını səmərəli keçirmələri üçün lazımi şərait yaradılıb. Ərazidə abadlıq işləri aparılıb və müxtəlif növ ağaclar əkilib.

Müdafiə naziri hərbi qulluqçuların xidmət və sosial şəraitinin daha da yaxşılaşdırılması, döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması, xüsusilə də azad edilən ərazilərdə xidmət edən şəxsi heyətin bütün zəruri ehtiyaclarının təmin olunması barədə müvafiq tapşırıqlar verib.

Sonda Zəfər Günü münasibətilə hazırlanan tort kəsilib və general-polkovnik Zakir Həsənov şəxsi heyətlə birgə nahar edib.

# "Zəfər yarmarkası" - Qələbənin təcəssümü



Oktyabrın 29-dan Dənizkənarı Milli Parkda 8 Noyabr - Zəfər Günü ilə əlaqədar "Zəfər yarmarkası" təşkil olunub. 9 noyabr tarixinədək davam edəcək "Zəfər yarmarkası" "YAŞAT" Fondu, Müdafiə Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti və Dənizkənarı Bulvar İdarəsinin birgə təşkilatçılığı ilə gerçəkləşib. "Zəfər yarmarkası", eyni zamanda, "Qarabağ qəhrəmanlarının izi ilə" mövzusunda reallaşır.

Səhər saatları olmasına baxmayaraq insanlar tək-tək Dənizkənarı Milli Parkda "Zəfər yarmarkası" üçün ayrılan əraziyə daxil olurlar. Öyrənirik ki, yarmarkanın təşkil olunduğu müddətdə böyük maraqla buraya gələn şəhərimizin sakinləri və qonaqları arasında daha çox tələbə-gənclər, orta məktəb şagirdləri seçilirlər. Böyük Qələbəmizin birinci ildönümünün sevincini yaşadığımız bu ərəfədə "Zəfər yarmarkası"nın təşkil olunması çox qürurvericidir.

Ərazidə diqqətimizi çəkən məqamlardan biri də Vətən müharibəsi zamanı döyüşlərdə olan ağır və zirehli texnikaların, PUA nümunələrinin, silahların və Azərbaycan Ordusunun müxtəlif təminat növlərinin nümayişidir. Xüsusi ayrılmış zonalarda mühəndis qoşunlarında istifadə olunan mühəndis əmlakları, tibb təminatına aid olan yaralı və xəstələrə ilkin tibbi yardım göstərmək üçün ləvazimatlar, raket-artilleriya silahları, snayperlər, pulemyotlar, avtomatlar, optik nişangahlar, əşya və ərzaq təminatına daxil edilən nümunələr nümayiş olunur. Onların hər biri haqqında maraqlanan insanlara ətraflı məlumatları çatdıran hərbi qulluqçularımız bildirirlər ki, "Zəfər yarmarkası"nda vətəndaşlarımız daha çox hərbi texnikalara və silahlara böyük maraqla tamaşa edirlər.

Burada əsgər yeməkxanası və səhra mətbəxi üçün də xüsusi yer ayrılıb, hərbi oyun meydançaları quraşdırılıb.

Yarmarka davam etdiyi günlərdə Müdafiə Nazirliyinin hərbi orkestrlərinin, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin və eyni zamanda, respublikamızın tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin iştirakı ilə konsert proqramları təşkil olunur. Onlar şəhər sakinlərinə Zəfər, Qələbə ruhlu musiqi nömrələri və maraqlı çıxışlar təqdim edirlər.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi də "Əsgərə məktub" layihəsi ilə "Zəfər yarmarkası"nda iştirak edir. Bu layihə yarmarkaya gələn şəhər sakinlərinin böyük marağına səbəb olur. Yarmarka təşkil olunduğu beş gün ərzində şəhər sakinləri və qonaqlar tərəfindən Vətənimizin keşiyində dayanan Azərbaycan əsgərinə böyük həvəslə, sevgi dolu 3000-ə yaxın məktub yazılıb. Bu məktublar işğaldan azad olunan ərazilərimizdə xidmət edən əsgərlərimizə çatdırılacaq.

"Zəfər yarmarkası"nın təşkilatçılarından olan "YAŞAT" Fondundan da məlumat alırıq ki, yarmarkada müxtəlif şirkətlər tərəfindən qida məhsullarının, Zəfər simvolikasına aid suvenirlərin, kitabların və digər məhsulların satışı həyata keçirilir. Eyni zamanda bu satışdan əldə olunan gəlir Vətən müharibəsi şəhidlərinin ailələrinə, qazilərə kömək və dəstək məqsədilə "YAŞAT" Fonduna keçirilir.

Yarmarkanın mərkəzində Vətən müharibəsi şəhidlərinin xatirəsinə rəmzi olaraq hazırlanan "Zəfər" ağacının yerləşdirildiyini görürük. Ağacın üzərindəki Vətən müharibəsi şəhidlərinin hər birinin adı, soyadı, ata adı, doğum tarixi və sonzusluq işarəsi buraya gələn şəhər sakinlərinin, qonaqların diqqətini çəkir. Onlar böyük maraqla bu rəmzi ağaca tamaşa edirlər. Hər kəs "Zəfər" ağacının önündə ayaq saxlayıb qəhrəmanlarımızı yad edir...

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Hərbi Məktəbin orkestr heyəti Türkiyəyə yola düşüb

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Hərbi Orkestri Zəfər Gününün ildönümü münasibətilə Türkiyədə keçiriləcək silsilə tədbirlərdə iştirak etmək üçün Ankaraya yola düşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Hərbi orkestrin heyəti polkovnik-leytenant Fariz Məmmədzadənin rəhbərliyi ilə Ankara şəhərində konsert proqramları ilə çıxış edəcək.

## Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi davam edir



"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən birləşmələrlə keçirilən komanda-qərargah təlimi davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, komanda-qərargah təlimində müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilən Naxçıvan Qarnizonu Qoşunlarının aidiyyəti üzrə birləşmə və hissələrinin praktiki fəaliyyətlərə cəlb olunan bölmələri "Həyəcan" siqnalı ilə təlim rayonuna çıxarılıb.

Döyüşü idarəetmə mərkəzlərində qoşunların fəaliyyətinin əlaqələndirilməsi üzrə yaradılan işçi qrupların müasir texniki vasitələr üzərindən məlumat mübadiləsini aparmaq bacarıqları yoxlanılır.

Təlimdə müxtəlif qoşun növü birləşmələrinin qarşılıqlı fəaliyyətini təkmilləşdirmək, ayrı-ayrı tapşırıq yerinə yetirən taktiki və xüsusi qrupların fəaliyyətinin uzlaşmasına nail olmaq, komandirlərin yaranan şəraitə uyğun olaraq qısa zamanda doğru qərar qəbul edib tabelikdə olanlara çatdırmasını təmin etmək əsas məqsədlər kimi qarşıya qoyulub.

* * *

Təlimin planına əsasən səhra və stasionar döyüşü idarəetmə məntəqələrində əməliyyatlar planlaşdırılır, müxtəlif fəaliyyət tərzləri üzrə hesabatlar aparılır, ərazidə taktiki və xüsusi qrupların tapşırıqları dəqiqləşdirilir, maket üzərində qarşılıqlı əlaqənin və hərtərəfli təminatın təşkili üzrə plan və hesabatlar hazırlanır.

Qəbul edilmiş qərarın hərtərəfli təminatının təşkili üzrə qərargahlar tərəfindən plan və əlavələrin xəritəyə işlənilməsi, aidiyyəti üzrə əmr və sərəncamların müasir texniki vasitələr üzərindən bölmələrə göndərilməsi məşq etdirilir.

Təlimin növbəti mərhələsi kompüter üzərində və praktiki fəaliyyətlərin icrası ilə davam edəcək.

# Şəhidlərin xatirəsinə həsr olunan tədbirlər keçirildi

Vətən müharibəsində şəhid olanların xatirəsinə həsr olunan anım mərasimləri keçirildi. Mərasimlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirlərdə Müdafiə Nazirliyinin, rayonların icra hakimiyyətlərinin və ictimaiyyətin nümayəndələri, universitet və tam orta məktəblərin müəllim və şagird kollektivi, şəhidlərin ailə üzvləri, döyüş yoldaşları və dostları iştirak etdilər.





Anım mərasimlərində şəhidlərin ömür və döyüş yolundan bəhs edən videoçarxlar nümayiş edilib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Vətən torpaqlarının azadlığı uğrunda gedən döyüşlərdə qarşıya qoyulan döyüş tapşırıqlarının icrası zamanı vəzifə borcunu şərəf və ləyaqətlə yerinə yetirən şəhid mayor İlkin Qələmşah oğlu Əhdəzadənin xatirəsinə həsr edilən anım tədbiri keçirildi.

Şəhidin atası Qələmşah Əhdəzadə mərasim iştirakçılarını salamlayaraq, şəhidlərin xatirəsinin hər zaman uca tutulmasına və şəhid ailələrinin dövlətin diqqət və qayğısı ilə əhatə olunmasına görə başda Prezident İlham Əliyev və Müdafiə Nazirliyinin rəhbərliyi olmaqla hər bir kəsə minnətdarlığını bildirdi.

Çıxış edənlər şəhidin Ali Baş Komandanımızın rəhbərliyi altında başlanan Vətən müharibəsində döyüş tapşırıqlarını uğurla yerinə yetirməsindən, düşmənə göz dağı verməsindən, Vətəninə, dövlətinə bağlı olmasından, haqq savaşında göstərdiyi şücaət və qorxmazlığından danışdılar.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərliyə aid mahnılar səsləndirildi.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

Azərbaycan Tibb Universitetində işğal olunan tarixi torpaqlarımızın azadlığı uğrunda gedən 2016-cı ilin Aprel döyüşləri, 2020-ci ilin Tovuz döyüşləri və Vətən müharibəsində şəhidlik məqamına ucalan məzunların xatirəsi anıldı.

Tədbiri Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli açaraq bildirdi ki, bir il öncə sentyabrın 27-də işğalçı dövlətin növbəti təxribatına cavab olaraq əkshücum əməliyyatına başlayan Azərbaycan Ordusu 44 günlük Zəfər yürüşü ilə ölkəmizin ərazi bütövlüyünü təmin etdi. “Silahlı Qüvvələrimiz torpağımızın hər qarışının düşməndən təmizlənməsi uğrunda rəşadətlə mübarizə apardı, böyük tarixi nailiyyətlərə imza atdı. Vətən müharibəsi Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, iradəsi, rəşadətli ordumuzun cəsurluğu, qəhrəmanlığı nəticəsində zəfərlə başa çatdı. Bu tarixi Qələbə şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazanılaraq Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazıldı”.



Hərbi Tibb Fakültəsinin rəisi tibb xidməti polkovniki Çingiz Əlləzov torpaqlarımızın azad olunması ilə başa çatan Vətən müharibəsindən danışaraq bildirdi ki, Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə Azərbaycan Ordusu illərdir işğal altında olan torpaqlarımızı 44 günə azad etdi. Bu Qələbə bizim şanlı tariximizdir və tarixdə əbədi qalacaq.

Tədbirdə iştirak edən şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına, Müdafiə Nazirliyinin və Azərbaycan Tibb Universitetinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.



Tədbirdə Azərbaycan Tibb Universitetinin, Hərbi Tibb Fakültəsinin 18 məzununun əziz xatirəsi ehtiramla yad edildi, şəhid tibb işçilərindən bəhs edən videoçarx nümayiş edildi.

Tədbir vətənpərvərliyə aid mahnıların və şeirlərin səsləndirilməsi ilə davam etdi.

Sonda şəhid ailələrinə Müdafiə Nazirliyinin, Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin və "Vətən müharibəsi əlillərinə kömək" İctimai Birliyi tərəfindən qiymətli hədiyyələr təqdim olundu.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda edən şəhidlərin ruhlarına ehtiram məqsədilə "Şəhidlər ölməz, Vətən bölünməz!" tədbirlər silsiləsi çərçivəsində növbəti anım mərasimi keçirildi.

Polkovnik-leytenant İlkin Qayıbov çıxış edərək Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun Vətən müharibəsində 44 gün ərzində həyata keçirdiyi uğurlu döyüş əməliyyatlarından, düşmən üzərində qazandığı parlaq Qələbədən, igid oğullarımızın qəhrəmanlığından, mübarizliyindən, qorxmazlığından danışdı. Şəhid ailələrinə səbir, qazilərimizə isə şəfa dilədi.



Şəhid Nazim Kirxalovun anası Sultan ana və şəhid Ağamoğlan Kərimovun atası Yusif Kərimov da övladlarının qəhrəmanlıqları ilə fəxr etdiklərini, həmçinin onlara göstərilən diqqət və qayğıya, eləcə də övladlarının və bütün şəhidlərin xatirəsinin uca tutulduğuna görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən mahnılar ifa etdilər.

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarımızı tanımaq və tanıtmaq məqsədilə "Şəhidlər ölməz, Vətən bölünməz!" adlı tədbirlər silsiləsində şəhid tankçı Mahmud Əhmədovun xatirəsinə həsr olunan anım mərasimi keçirildi.



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov anım mərasimində çıxış edərək Mahmud kimi Vətənimizin igid övladlarının xatirəsinin hər zaman əziz tutulacağını diqqətə çatdırdı.

Mərkəz rəisi çıxışında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Vətən müharibəsində göstərdiyi yenilməz sərkərdəlik məharətindən, qətiyyətli mövqeyindən, rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin qəhrəmanlıq, fədakarlıq nümunələrindən, tarixi Zəfərin qazanılmasında xalq-dövlət-ordu birliyindən bəhs etdi.

Anım mərasimində çıxış edənlər Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi qulluqçusu çavuş Mahmud Əhmədovun şərəfli ömür yolundan - vətənpərvərliyindən, üçrəngli Azərbaycan bayrağına olan hədsiz sevgisindən, içdiyi Hərbi anda sadiqliyindən, qorxmazlığından, peşəkar tankçı və mexanik-sürücü kimi döyüşlərdə göstərdiyi igidliklərindən danışdılar. Eyni zamanda, döyüş yoldaşları şəhid Mahmud Əhmədovla bağlı xatirələrini bölüşdülər.

Qeyd edildi ki, Vətən müharibəsində göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə şəhid Mahmud Əhmədov "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

Şəhidin atası Fərman Əhmədov və anası Aybəniz Əhmədova çıxışlarında Mahmudun Bayraq, Vətən, Torpaq, Xalq uğrunda döyüşlərə hər an hazır olmasından danışdılar, bütün şəhid ailələrinə Allahdan səbir dilədilər. Onlara göstərilən diqqət və qayğıya, övladlarının adının və xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Anım mərasimi Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən, şəhidlərimizin xatirəsinə həsr olunan mahnı və marşlarla davam etdi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "Şəhidlər ölməz, Vətən bölünməz!" devizi ilə şəhid əsgər Elvin Salahlının anım tədbiri keçirildi.

Şəhidin atası Səlim Salahov oğlunun qısa ömür yolundan, Vətən müharibəsində döyüş yolundan danışaraq qeyd etdi ki, hər əsgər Ali Baş Komandanın döyüş əmrini mərdliklə, hünərlə yerinə yetirdi. Oğlum Elvin Şuşa yaxınlığına kimi döyüşdü, Xocavənddə şəhid oldu. Qələbə gününü görə bilməsə də, ruhu narahat qalmadı, Zəfər qazandıq. Şəhid ailələrinə diqqətə və qayğıya görə dövlət başçısına, Müdafiə Nazirliyinin, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəhbərliyinə minnətdarlığını bildirdi.

H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov çıxışında şəhidlərin heç zaman unudulmayacağını bildirdi.

Şəhidin anası kövrəklik qarışıq qürurla bildirdi ki, oğlum Elvin şəhid oldu, oğlum Fərid kursantdır, hərbçi olacaq. Bizim qəhərə Zəfər təsəlli oldu. Fəridin xidmət yolu bu təsəllinin davamı olacaq...

Anım tədbirinin sonunda H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərlik mahnıları ifa edildi...

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Hərb Tarixi Muzeyində tədbir keçirildi



Azərbaycan Hərb Tarixi Muzeyində Vətən müharibəsində erməni millətçilərinə qarşı savaşda tarixi qələbənin qazanılmasının ildönümünə həsr olunan "Azərbaycan dövlətçiliyi: islahatlar və zəfər mərhələsi" adlı tədbir keçirildi.

Ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə Müdafiə Nazirliyinin hərbi hissələrinin, idarə və müəssisələrinin, Silahlı Qüvvələrin Hərbi Akademiyasının zabitləri, əsgərlər, şəhər muzeylərinin, ictimaiyyət və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etdilər.

Tədbiri açıq elan edən Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Qazanılan qələbə Azərbaycanın həm hərbi, həm diplomatik, həm də siyasi müstəvidə zəfərinin təntənəsidir" adlı məruzə ilə çıxış edərək bildirdi ki, Azərbaycanın tarixi Zəfəri ilə yekunlaşan müharibə ədalətli və əsl Vətən müharibəsi idi. Bu Qələbə Ali Baş Komandanın qətiyyəti, qüdrətli ordumuzun şücaəti, xalqımızın birliyi, cəsur zabit və əsgərlərimizin peşəkarlığı, şəhidlərimizin fədakarlığı hesabına qazanıldı.

Sonra ehtiyatda olan 1-ci dərəcəli kapitan Nurulla Əliyev "Azərbaycanın Vətən müharibəsindəki qələbəsindən, Vahid İsmayılov "17 Noyabr - Milli Dirçəlişdən milli tərəqqiyə doğru uzanan yol", Ərəstun Baxşəliyev "Azərbaycan Respublikası Konstitusiyasının tarixi - imperiyadan müstəqilliyə uzanan yol", Pərviz Ağalarov "Müstəqilliyimizin və milli mənsubiyyətimizin müqəddəs rəmzi olan bayrağımızın tarixindən", İbrahim Məsimoğlu "Azərbaycan-Türkiyə Respublikalarının diplomatik münasibətlərinin Vətən müharibəsində qələbənin qazanılmasında təsiri" adlı məruzələrlə çıxış etdilər.

Tədbirdə Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və elm şöbəsinin hərb tarixi üzrə professoru, tarix elmləri doktoru, ehtiyatda olan 1-ci dərəcəli kapitan Nurulla Əliyevin "Vətən müharibəsində Azərbaycanın qələbəsi" adlı kitabının təqdimatı oldu, Vətən müharibəsindən bəhs edən videoçarx nümayiş edildi.

Tədbir Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin hərbi orkestrinin, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin vətənpərvərlik mahnıları və "Azərbaycan xəritəsi" şeirinin ifası ilə başa çatdı.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Hərbi həkimlərin iştirakı ilə Türkiyədə Zəfər Günü qeyd olunub



Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı səfirliyi, Ankara şəhərində Azərbaycan Həkimlər Dərnəyi, eləcə də Gülhanə Tədris və Araşdırma Xəstəxanasının təşkilatçılığı ilə "Qarabağ Zəfəri - Həkim gözüylə qardaşlığın dastanı" adlı tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Gülhanə Halil Akçiçek konfrans zalında keçirilən tədbirdə ictimaiyyət nümayəndələri və qardaş ölkədə təhsil alan tələbələr iştirak ediblər.

Keçirilən tədbirdə Vətən müharibəsinin ilk günündən Gülhanə Tədris və Araşdırma Xəstəxanasında təhsil alan azərbaycanlı zabitlərin könüllü olaraq cəbhə zonasına yollanmasından, həkimlərimizin orada apardıqları uğurlu əməliyyatlardan ətraflı danışılıb.

Zəfər Gününün ildönümü münasibətilə Türkiyədə səfərdə olan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Hərbi Orkestr heyəti tədbirdə hərbi marşlar ifa edib.

Sonda həkimlərin döyüş əməliyyatlarında iştirakını əks etdirən foto-sərgi təqdim edilib, xatirə şəkli çəkdirilib.

# Media nümayəndələri Vətən müharibəsində iştirak edən hərbi qulluqçularla görüşüb

*Azərbaycan Hərb Tarixi Muzeyində Vətən müharibəsində iştirak edən bir qrup hərbi qulluqçunun kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşü keçirilib.*

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbənin əhəmiyyətindən danışılıb, Azərbaycan Ordusunun şəxsi heyətinin qəhrəmanlıq və şücaət nümunələrindən söhbət açılıb.

Döyüş iştirakçıları torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılan əməliyyatlar barədə təəssüratlarını media nümayəndələri ilə bölüşüb və onları maraqlandıran sualları cavablandırıblar.

Media nümayəndələrinin hərbi qulluqçularla görüşü Azərbaycan Hərb Tarixi Muzeyinə ekskursiyası ilə davam edib. Burada muzeyin eksponatları barədə ətraflı məlumat verilib və şəhidlərimiz şəxsi əşyaları, o cümlədən Vətən müharibəsində ələ keçirilən qənimətlərin bir qismi KİV nümayəndələrinə təqdim olunub.

**"Azərbaycan Ordusu"**

# Tələbə-gənclər Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrindən birində olublar



Tələbə-gənclərdən ibarət bir qrup heyət Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrindən birində əsgər və zabitlərlə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, şəxsi heyətin sosial-məişət şəraiti, əsgər yataqxanası və yeməkxanası, eləcə də Təlim-Tədris Mərkəzi ilə tanış olan zaman tələbə-gənclərə ətraflı məlumat verilib. Bildirilib ki, şəxsi heyətin nümunəvi xidməti üçün dövlətimiz tərəfindən hərtərəfli şərait yaradılıb.

Şəxsi heyətin sosial-məişət şəraiti ilə yanaşı, silahlanmada mövcud olan silah və texnikalar, o cümlədən zirehli döyüş maşınları, avtomobil texnikaları, top və minaatanlar, hava hücumundan müdafiə və tank əleyhinə vasitələr, snayper tüfəngləri və müxtəlif atıcı silahlarla tanış olan gənclər nümayiş olunan hərbi vasitələrə maraqla baxıblar.

Tədbirin bədii hissəsində Kəngərli rayon Mədəniyyət Şöbəsinin "Kəngər" instrumental ansamblının kollektivi konsert proqramı ilə çıxış edib, tələbə-gənclər və əsgərlər rəqs edərək əyləniblər. Sonda qonaqlar şəxsi heyətlə birgə nahar ediblər.

# Zəfər Günü ərəfəsində hərbi hissələrə sovqatlar verildi




Azərbaycanda xalq-ordu birliyi hər zaman olub. İkinci Qarabağ müharibəsində əsgərlərə müxtəlif yardımlar göstərən xalq hər zaman ordunun yanında idi. Həmin vaxtlarda da Vətən müharibəsində əsgərlərə ən çox dəstək olan təşkilatlardan biri də Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi və Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsidir. Həmkarlar İttifaqı ənənəsinə sadiq qalaraq bu günlərdə "Qarabağ Azərbaycandır!" devizi altında 8 Noyabr - Zəfər Günü münasibətilə Müdafiə Nazirliyinin birliklərində olub.

Həmkarlar İttifaqı Respublika Komitəsinin aparat rəhbəri Şaiq Əhmədov hərbçilərlə görüşdə bildirdi ki, təmsil olunduğu komitənin rəhbərliyi bütün kollektivlə birlikdə Vətənimizin müdafiəsində dayanan xalqımızın igid, mərd oğullarının yanındadır. Tarixi qələbəmizin birinci ildönümü ərəfəsində yenə Zəfər qazananların yanında olmağı özlərinə mənəvi borc bilirlər.

Şaiq Əhmədov Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşovanın fəaliyyətini yüksək qiymətləndirdi. Abiyat xanımın tez-tez təşkilat adından hərbi hissələrdə əsgər və zabitlərlə görüşdüyünü, onların arzu və istəklərini nəzərə alaraq mümkün yardımların edildiyini qeyd etdi. Bu dəfə də Həmkarlar əsgərlərə bayram sovqatı gətiriblər. Şaiq Əhmədov komitənin rəhbərliyi tərəfindən şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə də mütəmadi olaraq dəstək göstərildiyini önə çəkdi.

Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova bildirdi ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 gün davam edən və xalqımıza tarixi Zəfər yaşadan qəhrəman Azərbaycan əsgərlərinin görüşünə gəlməyi özünə mənəvi borc bilib. Dəfələrlə cəbhəyanı hospitallarda müalicə olunan əsgərlərə və atəşkəs dövründə ən ucqar döyüş postlarına gedərək döyüş növbəsi çəkən xalqımızın məğrur oğullarının görüşündə olub. Abiyat xanımın gəlişini hər zaman hərbçilərimiz sevinclə qarşılayıblar.

Polkovnik-leytenant Rauf Niyazov birlik komandiri adından 8 Noyabr - Zəfər Günü münasibətilə əsgərlərə göstərilən diqqət və qayğıya görə Respublika Həmkarlar İttifaqının rəhbərliyinə və yardımları təqdim edən qonaqlara təşəkkür də edib.

Həmkarlar təşkilatının üzvləri birliklərdə olublar və orada xidmət edən əsgərlərə 8 Noyabr - Zəfər Günü münasibətilə bayram sovqatları təqdim ediblər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# “Hərbi dənizçilər Zəfər yolunda” adlı vətənpərvərlik tədbiri keçirilib



Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsis olunan və bu il ilk dəfə ölkəmizdə təntənəli şəkildə, ümumxalq bayramı kimi qeyd ediləcək Zəfər Günü ərəfəsində Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin klubunda "Hərbi dənizçilər Zəfər yolunda" adlı vətənpərvərlik tədbiri keçirilib.

Əvvəlcə respublikamızın ərazi bütövlüyünün bərpa olunması və tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsinə bir dəqiqəlik sükut elan edilib, Dövlət Himni ifa olunub.

"Qələbə marşı"nın sədaları altında səhnəyə çıxan layihə müəllifi və tədbirin aparıcısı polkovnik Abdulla Qurbani tədbir iştirakçılarını, Milli Məclisin deputatlarını, şəhid ailələrini, müharibə iştirakçısı olan hərbi dənizçiləri Zəfər Günü münasibətilə təbrik etdikdən sonra Vətən müharibəsində şəhadətləri ilə tarix yazan, adları tarixə yazılan xüsusi təyinatlı şəhid hərbi dənizçilərin adlarını bir-bir çəkib:

- Kapitan-leytenant Fərrux Mirzəmməd oğlu Həşimov;
- Baş leytenant Elnur Elsevər oğlu Zeynalov;
- Baş miçman Mərdan Əhməd oğlu Mehdizadə;
- Miçman Vüsal Qüdrət oğlu Məmmədov;
- Miçman Fuad Taleh oğlu Nəcəfov;
- Miçman Elvin Ramiz oğlu Səfərov;
- Miçman Ruslan Rəcəb oğlu Rəcəbov;
- Gizir Zaur Mübariz oğlu Ələsgərli;
- Kiçik miçman Fəqan Amil oğlu Zalov;
- Aprel döyüşlərinin şəhidi miçman Rusif Ağayev.

Hər bir şəhidin adı çəkildikcə səhnədə məğrur-məğrur dayanan dəniz xüsusi təyinatlılarının mübariz döyüşçüləri "Mən" deyə cavab verib və tədbir iştirakçıları onları ayaqüstə alqışlayıblar.

Qeyd olunub ki, şəhidlər xalqımızın qızıl fondudur, onlar əbədiyyət yolçusudurlar. Şəhidlərimizin adları tarixdən heç vaxt silinməyəcək, qəhrəmanlıqları unudulmayacaq və onlardan hər biri gənc nəslin vətənpərvərlik tərbiyəsində örnək, nümunə olaraq yolumuza nur çiləyəcəklər.

Şəhidlər dünən Zəfərə aparan yollarda bizimlə bir yerdə olduqları kimi bu gün də bizimlə bir sırada, gələcəkdə də bizimlə bir yerdə olacaqlar. Qədirbilən xalqımız və dövlətimiz onların xatirəsini həmişə əziz tutacaq.

Polkovnik Abdulla Qurbani nəzərə çatdırıb ki, Azərbaycan Hərbi Dəniz Qüvvələri dənizdə respublikamızın maraqlarını təmin etməklə yanaşı, dövlətimizin Xəzəryanı regionda hərbi-coğrafi vəziyyəti ilə bağlı mühüm vəzifələri uğurla yerinə yetirir. Hərbi dənizçilərimiz istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Onlar "Döyüşə hazırlıq" səviyyəsini daim artırır, Xəzər dənizinin Azərbaycan sektorunda əlverişli əməliyyat rejiminin saxlanılması üzrə qarşıya qoyulan vəzifələrin icrasını mütəmadi olaraq təkmilləşdirir, döyüş hazırlığının keyfiyyətini daha da artırırlar.

Təcavüzkar Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın başladığı haqq savaşının - Vətən müharibəsinin ilk günündən digər qoşunlarla yanaşı, Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti də bir nəfər kimi döyüşlərə hazır olduqlarını bildirib və hərbi əməliyyatlarda verilən tapşırıqları uğurla yerinə yetirərək göstərdikləri qəhrəmanlıq, şücaət, mərdlik və igidlik nümunələri ilə Zəfər salnaməmizə parlaq səhifələr yazıblar. Onlar bir daha sübut ediblər ki, Azərbaycanın hərbi dənizçiləri dənizdə olduğu kimi, quruda da mühüm tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməyə hər an hazır və qadirdirlər.

Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov tədbir iştirakçılarını hərbi dənizçilər adından salamlayıb, şəhidlərin valideynlərinə Vətənə layiqli mərd, igid, qorxmaz övladlar tərbiyə etdiklərinə və onlarla qürur duyduqlarına görə minnətdarlıq edib.

Komandan deyib: "2020-ci ilin 27 sentyabr gününü bütün xalqımız, Azərbaycan Ordusunun şəxsi heyəti kimi hərbi dənizçilərimiz də səbirsizliklə gözləyirdi və inanırdıq ki, Vətən müharibəsinin başlanacağı günə çox qalmayıb. Azərbaycan tərəfi dəfələrlə düşmənə mesajlar göndərərək danışıqlar yolu, sülh yolu ilə işğal etdiyi torpaqlardan çıxmasını tələb edib. Lakin düşmən məkrli və hiyləgər niyyətindən əl çəkmək əvəzinə, sentyabrın 27-də yenə də beynəlxalq hüquq normalarını kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdə respublikamızın yaşayış məntəqələrini və hərbi mövqelərimizi atəşə tutub, nəticədə mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar olub. Bu hücumların qarşısını almaq məqsədilə Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başlamağa məcbur olub.

Ali Baş Komandan cənab İlham Əliyev müharibə ərəfəsində dönə-dönə bizim işimizin haqq işi olduğunu qeyd edərək bəyan edirdi ki, biz heç kəsin torpağını işğal etməmişik. Heç kəsin də torpağında gözümüz yoxdur. Bizim ərazi bütövlüyümüz pozulubdur, torpaqlarımız işğal altındadır. Azərbaycan xalqı, Azərbaycan Ordusu hər an öz ərazi bütövlüyünü bərpa edə bilər. Bizim buna haqqımız çatır. Beynəlxalq hüquq normaları da bizə belə bir imkan yaradır.

Həmin gün Azərbaycan Respublikası Prezidentinin xalqa müraciətini hərbi dənizçilərimiz cəbhə bölgəsində böyük diqqətlə izləyib və Ali Baş Komandanın "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz Zəfər çalacağıq! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" sözlərini özlərinə şüar edərək döyüş meydanlarına atılıblar".



İlk olaraq Hərbi Dəniz Qüvvələri Sualtı Hücum və Sualtı Müdafiə Xüsusi təyinatlı dəstəsinin döyüşən orduya qoşulduğunu vurğulayan kontr-admiral Sübhan Bəkirov diqqətə çatdırıb ki, birinci xüsusi təyinatlı qrupumuz müharibənin ikinci günündə Goranboy rayonunda, əfsanəvi qəhrəmanımız Mübariz İbrahimovun adını daşıyan "Mübariz postu" istiqamətində ilk döyüş tapşırığını itki vermədən uğurla yerinə yetirib. Sonra isə hərbi dənizçilərimiz Füzuli-Cəbrayıl istiqamətində Zəfər yürüşünü davam etdiriblər. Onlar bir çox yaşayış məntəqəsini, eləcə də düşmənin hərbi şəhərciyini və zastavasını azad edib, Xudafərinə bayraq sancıb və azad edilən əraziləri aidiyyəti üzrə digər qoşunların bölmələrinə təhvil veriblər. Döyüş meydanında fərqləndiklərinə görə iki zabitimizə vaxtından əvvəl hərbi rütbə verilib.

Hərbi dənizçilərimizin - xüsusi təyinatlılarımızın böyük fədakarlığı nəticəsində Qubadlı rayonunun neçə-neçə kəndi, eləcə də Qubadlı şəhəri işğaldan azad edilib və polkovnik Zaur Quliyev Qubadlı şəhərinin azad olunması barədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə məruzə edərək bildirib ki, Qubadlı şəhəri işğaldan azad olunub. Hal-hazırda Qubadlı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağı dalğalanır.



Dəniz xüsusi təyinatlıları Qubadlıdakı uğurlu əməliyyatlardan sonra Xocavənd rayonunun yaşayış məntəqələrinin, bir çox strateji yüksəkliklərin azad edilməsi uğrunda döyüşlərdə əsl qəhrəmanlıq nümunələri göstəriblər.

Düşmənin alınmaz qalaya çevirdiyi və neçə-neçə igidimizin şəhid olduğu Qızılqayanın alınması uğrunda döyüşlərdə də dəniz piyadalarımız xüsusilə fərqləniblər.

Əlavə qüvvəyə ehtiyac yarandıqda HDQ döyüş gəmilərinin şəxsi heyəti bir nəfər kimi müharibəyə getməyə hazır olduğunu bildirib. Lakin onlardan yalnız lazım olan sayda hərbi dənizçi də cəbhəyə yola salınıb və onlar da ilk gündən qələbə əzmi, yüksək döyüş əhval-ruhiyyəsi ilə qarşıya qoyulan tapşırıqların icrasına nail olublar.

Daha sonra kontr-admiral bildirib ki, möhtəşəm Zəfərin qazanılması uğrunda şəhidlərimiz də olub. Xalqımız onları böyük izdihamla son mənzilə yola salıb. Hərbi dənizçilər heç vaxt ruhdan düşməyib. Onlar silahdaşlarının intiqamını döyüş meydanlarında alaraq şəhidlərin qanını yerdə qoymayıblar.

Müharibədən sonra hərbi dənizçilərimizdən polkovnik Zaur Quliyevə, Xaliq İbrahimova və kiçik miçman Fəqan Zalova (ölümündən sonra) Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunan ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulan döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunələrinə, həmçinin hərbi qulluq vəzifələrini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

Şəhid olan 9 nəfər hərbi dənizçi isə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən ərazilərimizin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə təltif olunan hərbi qulluqçuların sırasında "Qarabağ" ordeninə layiq görülüb və bir çox döyüş medalları ilə təltif olunublar. Vətən müharibəsi iştirakçısı olan hər bir hərbi dəniz xüsusi təyinatlısının xidməti Azərbaycan Respublikasının Prezidenti və Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

Milli Məclisin deputatları Aydın Mirzəzadə və Səbinə Xasayeva çıxış edərək tədbir iştirakçılarını Zəfər Günü münasibətilə təbrik edib, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan əsgərinin qazandığı möhtəşəm Qələbəni xalqımızın və dövlətimizin ən böyük uğuru kimi qiymətləndiriblər.

Millət vəkilləri iftixar hissi ilə qeyd ediblər ki, bu Qələbə xalqımızın birliyinin, həmrəyliyinin, dövlətimizin iqtisadi gücünün, rəşadətli Azərbaycan Ordusunun zabit və əsgərlərinin fədakarlığının, döyüş ruhunun, yüksək səviyyədə olan mənəvi-psixoloji hazırlığının, ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin, həmçinin dövlətimizin başçısının qətiyyətinin, hücum diplomatiyasının, sərkərdə məharətinin, əlbəttə, ilk növbədə, dəmir yumruğunun qələbəsi kimi Azərbaycan tarixinə yazılıb.

Şəhid valideynlərinin çıxışları və onların qürurla "Vətən sağ olsun!" deyərək övladları ilə fəxr etdiklərini dilə gətirmələri tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Xaliq İbrahimov döyüş xatirələrini danışıb və dəniz xüsusi təyinatlılarının bu gün də Müzəffər Ali Baş Komandanın hər bir əmrinə hazır olduqlarını bəyan edib.

Şəhidlərin xatirəsinə və qalib Azərbaycan əsgərinin xalqımıza bəxş etdiyi Qələbə sevincinə, Zəfər Gününə həsr edilən ədəbi-musiqili proqram tədbir iştirakçılarına duyğulu anlar yaşatsa da, möhtəşəm Qələbənin tərənnümü onlara xoş ovqat, bayram əhval-ruhiyyəsi bəxş edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Əsgərin döyüşə psixoloji hazırlığı qələbənin rəhnidir.

**Suallar:**

**1. Əsgərin psixoloji hazırlığının mahiyyəti və məzmunu.**

**2. Döyüşə psixoloji hazırlığın əsas üsulları.**

### Əsgərin psixoloji hazırlığının mahiyyəti və məzmunu

Əsgərin döyüşə psixoloji hazırlığı, hərbi kollektivlərin şəxsi heyətinin mənəvi-psixoloji vəziyyəti hər bir ordunun döyüş gücünün vacib tərkib hissələrindən biri sayılır. XXI əsrin ən parlaq savaş nümunəsi hesab edilən, 27 sentyabr 2020-ci il tarixdə başlayaraq 10 noyabr tarixində Azərbaycanın qələbəsi ilə yekunlaşan Vətən müharibəsi Azərbaycan dövlətinin qüdrətini və ordusunun döyüş qabiliyyətini dünyaya nümayiş etdirdi. Vətən müharibəsində qazanılan Zəfərin əsasını qoyan Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev deyib: "44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir".

"Mənəvi-psixoloji vəziyyət" məfhumu qoşunların fəaliyyətinə Azərbaycan Ordusunda yeni quruculuq işlərinin başlanması ilə daxil edilibdir. Bu onunla şərtlənibdir ki, hərbi-siyasi vəziyyətin yeni həqiqətləri, qarşıda duran hərbi vəzifələrin xüsusiyyətləri insan amilinin bütün tərkib hissələrinin maksimum fəallaşdırılmasını tələb edir.

44 günlük Vətən müharibəsində Azərbaycan əsgərinin göstərdiyi şücaət və igidlik nümunələri onun psixoloji hazırlığının göstəricisidir. Hələ 14 yaşında ikən hakimiyyətə gələn Şah İsmayıl Xətai Azərbaycanı birləşdirmək uğrunda savaşa qalxarkən belə deyibdir: "Biz müharibədə süstlük etsək, onda həm Vətənimizi, həm də həyatımızı itirəcəyik". Atabəy Eldəgiz, Uzun Həsən, Mustafa Kamal Atatürk, müharibələr tarixində ona görə iz buraxa bilmişlər və hərb sənəti onların qazandığı şöhrəti ona görə qoruyub saxlayır ki, onlar gözəgörünməyən, lakin "dəhşətli" bir gücdən - döyüşçü psixikasından yararlanmağı bacarıblar.

Əsgərlərin döyüşlərə psixoloji hazırlığının yüksək dərəcədə olması özünü hərbi qulluqçuların və ilk növbədə Azərbaycan əsgərinin döyüş şəraitindəki davranışında göstəribdir. Əksinə olduğu hallarda, yəni, psixoloji hazırlığı zəif olan hərbçilərin, o cümlədən Azərbaycan torpaqlarını 30 ilə yaxın bir müddətdə işğal edən erməni hərbi qulluqçularının rəftarında açıq-aydın görmək mümkün idi. Onların əksəriyyəti hay-küyə və çaxnaşmaya düşür, əmrləri düzgün yerinə yetirə bilmir və yaxud yerinə yetirmək istəmir, onlarda məqsəd aydınlığı, qətiyyət, döyüş fəallığı, təşəbbüskarlıq və özünənəzarət zəif olur ki, bunları da müharibə zamanı şübhələr, inamsızlıq və qətiyyətsizlik əvəz edir və iradə zəifliyi müşahidə olunur.

Hərbçidə çatışmayan mühüm cəhət mənəvi-psixoloji hazırlığın zəifliyi ilə bağlı olur. Müharibənin tələb etdiyi hazırlıq başa çatdırılmayıbsa o, əks psixoloji təsirlərin təzyiqindən özünü xilas edə bilmir. Əks psixoloji reaksiyaların təsirini azaltmaq üçün daxili qüvvələri səfərbər etmək lazım gəlir.

Əsgərin psixoloji hazırlığı:

- döyüşdə fəal, təşəbbüskar, fədakarcasına hərəkət etmək bacarığının qazanılmasını,
- fiziki və psixoloji gərginliyə tab gətirməyi, qorxu hissi ilə mübarizə aparmağı,
- döyüş tapşırıqlarını yerinə yetirmək üçün zəruri olan emosional - iradi keyfiyyətləri,
- psixoloji dayanıqlığın formalaşdırılması üzrə fəaliyyətlər kompleksini təşkil edir.

Döyüş əsgərin öz potensialını cəld göstərə bilməsi bacarığına çox sərt tələblər irəli sürür. Bunun dəyəri isə ya həmin əsgərin özünün, yoldaşlarının həyatı hesabına və yaxud döyüş tapşırığının yerinə yetirilməsi ilə ölçülür.

Əsgərin verilən tapşırığı bacardığı səviyyədə (döyüş ustalığını göstərməklə) yerinə yetirməsi daxili amillərdən, yəni

- hər şeydən öncə insanın əqidəsindən,
- onun təhlükəli, gözlənilməz, qeyri-müəyyənlik və vaxt qıtlığı şəraitlərində səmərəli hərəkət etmək qabiliyyətindən,
- verilmiş məqamda əsgərin emosional vəziyyətindən, səhhətindən asılıdır.

Sadalanmış amillərin məcmusu "psixoloji hazırlıq" adlandırılır.

Əsgərin döyüşə psixoloji hazırlığı bölmənin döyüş fəaliyyətinə dərhal başlaya bilməsinin əsas tərkib hissələrindən biridir.

- birinci növbədə Vətəni, doğmaları və əzizlərinin taleyi barədə əsgərin məsuliyyət hissini, özünə, öz yoldaşlarına, silahına, döyüş texnikasına inamın olmasını;
- ikinci növbədə isə mübarizə aparmaq, özünü sınaqdan keçirmək, öz zəif cəhətlərini üstələmək, düşmən üzərində qələbə qazanmağı nəzərdə tutur.

Əsgərin döyüşə psixoloji hazırlığının əsas əlamətlərinə:

- tələskənlik və qapalılığın olmaması, hesablanan və rəvan davranış;
- əmr və tapşırıqların səhvsiz və dəqiq yerinə yetirilməsi;
- normal fizioloji vəziyyət (nəbzin tezliyi, nəfəs alma, sifət rəngi və s.) aid edilir.

Döyüşə psixoloji hazırlığın üç dərəcəsi var: 1 - aşağı, 2 - orta və 3 - yüksək.

Aşağı dərəcəli psixoloji hazırlığın təzahür cəhətləri: əsgər özünə inanmır, mübarizə aparmağa can atmır, qərarsızdır, həddindən artıq tələskən və yaxud qapalıdır, ən sadə tapşırıqların yerinə yetirilməsində səhvlər buraxır. Orta dərəcəli psixoloji hazırlığın xarakterik əlamətləri: özünə və yoldaşlarına inanır, lakin cəsarətli hərəkətləri, mübarizə aparmaq cəhdləri hələ kifayət qədər deyildir. Əsgər verilən tapşırıqların yerinə yetirilməsində kiçik səhvlərə yol verir, fizioloji vəziyyəti normaya yaxındır. Yüksək səviyyəli psixoloji hazırlığı isə mübarizə aparmaq arzusu, şübhələrin yoxluğu, özünü sınamaq cəhdi və düşmən üzərində qələbənin qazanılması istəyi fərqləndirir. İnsan fiziologiyasının və psixikasının mühafizə mexanizmləri olduğuna görə, əsgər psixoloji hazırlığın bu səviyyəsində uzun müddət qala bilməz.

Buna görə də əsgər üçün çox vacibdir ki, döyüş qabağı özündə və yoldaşlarında orta səviyyəni saxlasın. Döyüşün gedişatında isə psixoloji hazırlığın yüksək səviyyəsi qoşulmalıdır.

Döyüş təlimi prosesində hər bir əsgər öz döyüş və psixoloji hazırlığını təkmilləşdirməlidir. Döyüşə hazırlığın faydalı vasitələrindən biri kimi əsgərin öz hərəkətlərinin ardıcıllığını əvvəlcə səhv etmədən asta-asta, getdikcə sürətini artıraraq ürəyində deməsi məsləhət görülür. Əsgər şəraitə fikrən o qədər öyrəşir ki, özündən asılı olmayaraq hərəkət etməyə başlayır. Bu isə düşüncə ilə davranış arasında möhkəm əlaqənin yaranması deməkdir.

Dərhal başlanacaq döyüş əməliyyatlarına psixoloji hazırlığın saxlanılması üçün psixoloji özünütənzimləmə üsullarından istifadə oluna bilər.

### Döyüşə psixoloji hazırlığın əsas üsulları

Döyüşə psixoloji hazırlığın saxlanılması üçün özünütənzimləmənin əsas üsulları aşağıdakılardır:

- özünəinam və özünütəlqin,
- öz təxəyyülünü idarəetmə,
- nəfəs almanı və əzələləri tonusda saxlamaq.

Özünəinam - əsgərin hazırlığını yüksək səviyyədə saxlamağın vacibliyini özünə sübut etməsidir. Döyüş növbətçiliyini, qarovul xidmətini çəkən və yaxud digər döyüş tapşırığını yerinə yetirən hər bir əsgər onu yayındıran fikirlərin, istəklərin yaranması nəticəsində sayıqlığını itirməsinin nə cür dəhşətli hadisələr, nəticələr törədə biləcəyini aydın təsəvvürünə gətirməlidir. Bu yerdə Nizamnamələrin tələblərini, rəislərin xəbərdarlıqlarını, xidmətin ibrətamiz nümunələrini mütləq yada salmaq lazımdır.

Özünütəlqin - özünəinam kimi, əsgərin əsas təsir vasitəsi olaraq sözdən istifadə etməsilə şüurlu şəkildə əldə olunur. Özünütəlqin insanın özünə və imkanlarına olan inamın gücünə onun psixi vəziyyətini dəyişə bilər. Məsələn, gecə xidmət çəkən əsgər yuxuluqla oyaqlıq arasında olduğu üçün bəzi hallarda sanki tormozlanan vəziyyətə düşür. Əsgərin psixikasının məhz bu vəziyyəti istənilən özünütəlqinə daha həssas olur. Ona görə də yuxulamağa və yaxud rahatlıq tapmağa olan ən kiçik cəhd belə yerindəcə dəf olunmalı və rədd edilməlidir. Əks təqdirdə şərait faciə ilə nəticələnə bilər.

Sayıqlığın itirilməsi çox ağır nəticələrə səbəb olur. Buna görə də əsgərlərdə gümrahlığın və aktivliyin saxlanılması üçün hərbi psixoloqlar çox dəqiq və qısa özünü təlimat forması tövsiyə edirlər. Yuxusu gələn, taqətdən düşən, sayıqlığını itirən əsgər bu ifadələri tez-tez işlətməlidir: "Mən diqqətimi toplayıram", "Mən sakitəm və özümə inanıram", "Mən öz davranışımı və vəziyyəti tam nəzarətdə saxlayıram".

Bu özünü təlimatlar ehtiyac duyulan vəziyyətin məxsusi modellərini təsvir edirlər. Əsgərin qabaqcadan hazırladığı sözlü düsturlar, dəfələrlə təkrar etmə yolu ilə şüuraltına yerləşdirilir və yubatmadan onun vəziyyətini müəyyən etməyə başlayır.

Özünütəlqin zamanı bəzi qaydalara riayət etmək vacibdir:

1. Özünütəlqin düsturlarını 5-6 dəfə ürəyinizdə təkrar etməli, onun məzmununa diqqət yetirməli və ehtiyac duyulan vəziyyəti təsəvvür etmək lazımdır;

2. Sözlü düsturlar qısa, aydın olmalı və konkret şəraitdə onları yerinə yetirmək imkanları şübhə doğurmamalıdır. Burada heç bir özünütənqidə yol vermək olmaz. Yalnız öz qüvvələrinizə tam inam təxirə salınmaz nəticələr verə bilir.

3. Sözlü düsturlar yalnız təsdiqedici formada işlənməli, yəni, inkaredici ifadələrə yol verilməməlidir. Məsələn: "Mən yatmaq istəmirəm" özünütəlqini əks təsir verə bilər. Çünki "istəyirəm" əvəzinə deyilən "istəmirəm" ifadəsindəki "yi"-ni əvəzləyən "mi" inkar şəkilçisi adətən şüuraltında nəzərə çarpmır. Bu cür hallarda yuxunu xatırlamaq ümumən olmaz. Əksinə, demək lazımdır ki: "Mən gümrah və çalışqanam" və yaxud "Mən yatmaq istəmirəm" ifadəsinin əvəzinə, "Mən gümraham" ifadəsini işlətmək lazımdır.

Diqqətin idarə olunması əsgərin təxəyyülünü idarəetməsi ilə sıx əlaqəlidir. Diqqətin hansı səmtə yönəlməsi onun sayıqlığına güclü təsir göstərir. Şüurlu nəzarətdən kənarda olan diqqətin döyüş tapşırığı ilə heç bir əlaqəsi olmayan obyektə keçirilməsi insanı yayındıra bilir. Bu isə insan psixikasının daha bir sirridir. Əgər ona məhəl qoymasaq daha ağır nəticələr qazanarıq. Köhnə bir fəndi misal gətirək. Düşmən qarovulçunu, saatdarı yayındırmaq məqsədilə kənara bir daş atır və qəfildən onun gözləmədiyi yerdən üstünə tullanır. Belə olan hallarda əsgər üçün vacibdir ki, qəfildən güclü qıcıqlandırıcı (təhlükəli səs, ekranın sönməsi, posta yaxın insan və yaxud heyvan) peyda olduqda bütün diqqətini yalnız bu obyekt üzərində saxlamasın. Eyni vaxtda daha əsas ola biləcək digər istiqamətləri də müşahidə etsin. Bunun üçün isə qabaqcadan diqqətin ən təhlükəli istiqamətlərin hər birinə növbə ilə keçirilməsi planı tərtib olunmalıdır. Yalnız bu qaydalara riayət etməklə şərait üzərində nəzarəti saxlamaq mümkündür. Döyüş şəraitində isə diqqəti döyüş tapşırığına aidiyyəti olan obyektlər üzərində saxlamaqla, ikinci dərəcəli qıcıqlara yayınmamaq tövsiyə olunur.

Nəfəsalmanın idarə olunması və əzələlərin tonusda (işlək vəziyyətdə) saxlanılması sırf psixoloji fənd sayılmır. Lakin nəfəsalmanın dərinliyi və tezliyi, bədən əzələlərinin gərilmə dərəcəsi əsgərin döyüş şəraitindəki psixi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir edir. Əsəb gərginliyinin götürülməsi üçün sakitləşdirici nəfəsalma fəndi təklif olunur. Dərindən nəfəsinizi alır, mümkün qədər nəfəsinizi saxlayıb və bacardığınız qədər asta sürətlə buraxırsınız. Psixi halınızı sakitləşdirmək üçün sizə bu fəndi 5-7 dəfə təkrar etmək lazımdır. Bundan sonra düşməni uzunmüddətli müşahidə etmək üçün zehniniz açılacaq, iradəniz səfərbər olunacaq və əzələlərinizdə təzə qüvvə əmələ gələcəkdir.

Əzələ gərginliyi əsəb fəallığını xeyli dərəcədə şərtləndirir və deməli, əsgərdə səfərbər olmaq hissinin və gümrahlığın yaranmasına səbəb olur. Əzələnin boşaldılması isə, əksinə, əsgərin psixikasına sakitləşdirici və tormozlandırıcı təsir göstərir. Ona görə də döyüşü gözləmə vaxtı bədən əzələlərini gərilən və elastik vəziyyətdə saxlamaq lazımdır. İsidilən aktiv əzələlər əsgərin döyüşə psixoloji hazırlığını yüksəldir.

Beləliklə, döyüş təlimi əsgərə hərbi biliklər qazanmaq, özündə döyüş səriştəsi və bacarıqlarını formalaşdırmaq imkanı verir. Bu isə özünəinamın əsasıdır. Psixoloji hazırlıq təlimləri isə onda döyüş fəaliyyətlərinə psixoloji cəhətdən dərhal başlamaq qabiliyyəti yaradır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Milli Qəhrəmanın adını daşıyan məktəbdə Zəfər Gününə həsr olunan tədbir keçirildi

*Bu il 103-cü ildönümünü qeyd edən rəşadətli Azərbaycan Ordusu gündən-günə inkişaf edir, qüdrətlənir, mükəmməlləşir. Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, daha sonra Ali Baş Komandan İlham Əliyevin uzun illər apardıqları məqsədyönlü siyasətin və uğurlu ordu quruculuğu prosesinin nəticəsidir ki, bu gün ordumuz dünyanın 50 ən güclü orduları sırasında özünə layiqli yer tutub.*



Ötən il sentyabrın 27-si Ermənistan silahlı birləşmələrinin növbəti təxribatlarına cavab olaraq başlayan əks-hücum əməliyyatı nəticəsində qazanılan Zəfər bunun əyani sübutudur. 44 gün davam edən Vətən müharibəsi zamanı əzəli torpaqlarımız, nəhayət ki, mənfur düşmən işğalından azad edildi. Haqq savaşımızda Qələbə qazanan igid döyüşçülərimiz dövlətçilik tariximizin yeni Zəfər dolu şanlı səhifəsini yazdılar. Həmişə olduğu kimi, bu gün də ordumuz xalqımızın qürur mənbəyidir. Uzun illər ərzində doğma yurd həsrətimizə son qoyulduğu tarix - 8 Noyabr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Zəfər Günü kimi qeyd edilir. Bu sevinc dolu gün ilə əlaqədar ölkəmizdə bir sıra silsilə tədbirlər keçirilir.

Müdafiə Nazirliyinin dəstəyi ilə belə tədbirlərdən biri də Bakı şəhəri, Nizami rayonunda yerləşən Milli Qəhrəman Ərəstun Mahmudov adına 220 saylı məktəb-liseydə keçirildi.

8 Noyabr - Zəfər Gününə həsr olunan "Zəfərə gedən yol" adlı tədbirdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, məktəbin müəllim və şagirdləri, valideynlər, şəhid ailələri, Vətən müharibəsi qaziləri iştirak edirdilər.

Əvvəlcə ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni səsləndirildi.

Tədbirdən öncə məktəb-liseyin direktoru Lətifə Əzimova ilə görüşdə məktəbdə aparılan hərbi vətənpərvərlik işi barədə söhbət etdik. Məktəbin direktoru bildirdi ki, 20 ilə yaxındır təhsil sistemindədir. Öyrəndim ki, Lətifə xanım əvvəlcə müəllim kimi işləyib, son 4 ildir ki, 220 saylı məktəb-liseyin direktoru vəzifəsində çalışır.

Lətifə xanım bizə məktəbin fəaliyyəti haqqında ətraflı söhbət açdı. "Bizim məktəb Birinci Qarabağ müharibəsi şəhidi, Azərbaycanın Milli Qəhrəmanı Ərəstun Mahmudovun adını daşıyır. Odur ki, məktəbimizdə şagirdlərin milli ruhda, vətənpərvər böyüməsinə xüsusi önəm verir, tez-tez bu mövzuda tədbirlər keçiririk. Ərəstun məktəbimizin məzunudur. Ermənі qəsbkarlarının torpaqlarımızı işğal etmələrinin qarşısının alınması uğrunda gedən hərbi əməliyyatlarda igidliklə iştirak edib və döyüşlər zamanı qəhrəmancasına şəhadətə qovuşub. Ümumilikdə isə, məzunlarımızdan Birinci Qarabağ müharibəsi zamanı on, 2020-ci ilin Vətən müharibəsi zamanı isə biri şəhid olub.

Cənab Prezidentimizin sərkərdəliyi altında keçirilən "Dəmir yumruq" əks-hücum əməliyyatı zamanı da biz ordumuza bacardığımız qədər dəstək olurduq. Azərbaycan Ordusuna Yardım Fonduna vəsait keçirmişik və döyüşlər gedərkən sosial şəbəkələrdə ordumuzla, qələbəmizlə bağlı müxtəlif həştəqlər paylaşırdıq.

Bu işlər bu gün də davam edir. Çünki biz həm bu gün sülh şəraitində Vətənimizdə yaşamağımıza, həm də işğalda olan torpaqlarımızın azad olunmasına görə cənab Prezidentimizə, ordumuza borcluyuq. Bizim indiki şagirdlərimiz də sabahın əsgərləri, zabitləridir. Allah ordumuzu qorusun.

Uzun illər torpaqlarımızın həsrətində idik və sonunda Ali Baş Komandanımızın döyüş əmri ilə Azərbaycan Ordusu qəhrəmanlıq salnaməsi yazdı. Bu ədalətli savaşımızda bizim məzun Həsənli Alı Nofəl oğlu da Vətən torpaqlarının azadlığı uğrunda canından keçdi. Ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub. O, qorxmaz, tərbiyəli və liderlik qabiliyyəti ilə hər zaman seçilənlərdən idi. Alı həmişə düşməndən qisas alacağımızı və Şuşamızda bayramlar keçirəcəyimizi söyləyərdi. Alı kimi minlərlə igidlərimizin sayəsində biz artıq bayramlarımızı Şuşada və doğma diyarımız Qarabağın bütün bölgələrində qürurla qeyd edə bilərik.

Məktəbimizdə bütün şəhidlərimizin əziz xatirəsini uca tuturuq və anım mərasimləri təşkil edirik. Şəhidlər xiyabanına tez-tez ziyarətə gedir, qəhrəmanlarımızı yad edirik. Bir neçə dəfə şagirdlərimizi Hərbi Qənimətlər Parkına ekskursiyaya da aparmışıq. Məktəblilərə hərtərəfli vətənpərvərlik ruhu aşılayırıq.

Direktorla söhbətimizi bitirdikdən sonra 220 saylı məktəb-liseyin kubok və fəxri fərmanları, sərgilərə çıxarılan rəsmlərlə tanış olduq. Tədbirin keçiriləcəyi akt zalının tərtibatı, müxtəlif guşələr, plakat və stendlər kollektivin tədbirə məsuliyyətlə hazırlaşdığından xəbər verirdi. Burada gördüklərimiz bizlərdə fəxr və fərəh hissləri oyatdı.

Tədbirin tərtibatçısı və təşkilatçıları məktəb-liseyin müəllimləri Gülnarə Quliyeva və Siyatel İsgəndərovadır. Birazdan üçüncü sinif şagirdi Əli Bəşirli səhnəyə çıxaraq hər kəsi salamladı. Şagirdlər bir-birinin ardınca Əlinin təqdimatından sonra bədii səhnəciklər göstərir, vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm edən şeirlər söyləyir, rəqs edirdilər. Vətən müharibəsi və qələbəmiz mövzusunda olan bu tamaşa-səhnəciklər balaca istedadlar tərəfindən peşəkarlıqla ifa olunurdu. Hiss olunurdu ki, şagirdlər 8 Noyabr - Zəfər Gününə həsr olunan "Zəfərə gedən yol" adlı tədbirə böyük həvəslə və məsuliyyətlə hazırlaşıblar.

Bədii hissə bitəndən sonra qonaqlara söz verildi. Məktəbin müəllimi G.Quliyeva söz demək üçün Vətən müharibəsi qazisini səhnəyə dəvət etdi. Qazilər adından danışan kapitan Xəqani Əsgərzadə çıxışı zamanı bütün şəhidlərimizə rəhmət dilədi və şəhid ailələri qarşısında baş əydi. Zabit "Şükürlər olsun ki, artıq Vətənimizin hər bölgəsi azaddır. Biz bu dövlətin, bu xalqın övladlarıyıq. Müharibədə qələbə isə xalqla ordu bir olduqda qazanıla bilər. 44 gün davam edən "Dəmir yumruq" əks-hücum əməliyyatı zamanı biz xalq-ordu birliyinin şahidi olduq. Tariximizin ən vacib zəfərlərindən birini qazandıq. Bu Qələbə üçün Ali Baş Komandanımız cənab İlham Əliyevə, Azərbaycan Ordusunun hərbi qulluqçularına və bütün xalqımıza minnətdarıq. 8 Noyabr - Zəfər Günü münasibətilə sizləri səmimi qəlbdən təbrik edirəm, uğurlar arzulayıram".

Çıxışlardan sonra az öncə səhnədə səhnəciklər göstərən, qısa tamaşalar və milli rəqslər təqdim edən məktəblilərə yaxınlaşıram. 3-cü sinif şagirdləri İsmayılbəyli Fatimə, Orucəliyeva Leyla, Quluzadə Zeyd, Məmmədov Adil, Əlili İsmayıl, Həsənli Fatimə, Məmmədli Mətin, Qurbanova Elanur və digər şagirdlər ordumuzla fəxr etdiklərini bildirdilər. Məktəblilər "Vətən müharibəsində igid əsgərlərimiz işğalda olan torpaqlarımızı düşməndən azad etdilər. Onların qəhrəmanlığı sayəsində artıq heç kim bizim Qarabağa əl uzada bilməz". "Qarabağ Azərbaycandır!" deyə ürək sözlərini bizlərlə bölüşdülər.

Tədbirin yekununda vətənpərvərliyi tərənnüm edən musiqi sədaları altında Azərbaycan Respublikasının Dövlət Bayrağı səhnəyə gətirildi.

Sonda 3d və 3e sinfinin şagirdləri qazilərə Qarabağımızın simvolu olan "Xarı bülbül" nişanı hədiyyə etdilər və qonaqlarla məktəblilər xatirə şəkilləri çəkdirdilər.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# İdman

## Yunan-Roma güləşçimiz Həsrət Cəfərov dünya çempionatının qalibi olub



Serbiyanın paytaxtı Belqradda 23 yaşadək güləşçilərin dünya çempionatı davam edir.

Yunan-Roma güləşçimiz Həsrət Cəfərov (67 kq) debütdə meksikalı rəqibini məğlub edib. H.Cəfərov daha sonra Rumıniya idmançısına tam üstünlüklə qalib gələrək dörddəbir finala yüksəlib. Qazaxıstan idmançısına da heç bir şans tanımayan güləşçimiz adını yarımfinala yazdırıb. Türkiyə güləşçisindən də güclü olan həmyerlimiz dünya çempionatının finalına yüksəlib. Qızıl medal uğrunda görüşdə idmançımızın rəqibi Məhəmməd Rezayi (İran) olub. Həlledici görüşdə də qələbə qazanan güləşçimiz U-23 dünya çempionatının qalibi olub.

Qeyd edək ki, H.Cəfərov bu ilin avqustunda Rusiyanın Ufa şəhərində gənclər arasında dünya çempionatında və 1 ay sonra Kazandakı I MDB Oyunlarında qızıl medal qazanıb.

## "Qarabağ" komandası səfərdə "Kayrat"ı məğlub edib



Ağdamın "Qarabağ" komandası UEFA Konfrans Liqasının qrup mərhələsinin dördüncü turu çərçivəsində noyabrın 4-də səfərdə Qazaxıstanın "Kayrat" klubu ilə qarşılaşıb.

Almatıdakı "Ortalık" stadionunda keçirilən görüşdə ilk qol 57-ci dəqiqədə vurulub. Ağdamlılar İbrahim Vadjinin qolu ilə hesabı açsalar da, 11 dəqiqə sonra hesab bərabərləşib. "Kayrat"ın hücumçusu Joze Kante hesabda tarazlığı bərpa edib. Lakin görüşün 72-ci dəqiqəsində komandamız yenidən hesabda irəli çıxıb. Bu dəfə "Qarabağ"ın heyətində Abdullah Zubir fərqlənib - 2:1.

Beləliklə, bu oyundan sonra "Qarabağ" xal ehtiyatını 10-a çatdırıb. Ağdamlıların qrupda liderliyə yüksəlməsi aktivində 7 xal olan "Bazel"in səfərdə "Omoniya" komandası ilə keçirəcəyi görüşün nəticəsindən asılı olacaq. "Omoniya" və "Kayrat"ın aktivlərində 1 xal var.

## Uşaq-gənclər idman məktəbinin cüdoçuları beynəlxalq turnirdə 2 medal qazanıblar



Rusiyanın Nalçik şəhərində cüdo üzrə beynəlxalq turnir keçirilib.

Turnirdə 10 nömrəli uşaq-gənclər idman məktəbinin yetirmələri 2 medal qazanıblar.

Turnirdə 66 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən Sübhan Axundov bütün rəqiblərini məğlub edərək birinci yeri tutub. Digər cüdoçumuz Həsən Qurbanlı (34 kq) isə bürünc medal qazanıb.

**AZƏRTAC-ın materialları əsasında**

3-cü dərəcəli kapitan Siracov Sirac Məmmədağa oğluna məxsus MN № 0051216 nömrəli, kapitan-leytenant Fərziyev Ziya Zakir oğluna məxsus MN № 0041774 nömrəli, baş leytenant Yusifov Alik Elşən oğluna məxsus MN № 0053218 nömrəli, baş leytenant Əliyev Vasif Afis oğluna məxsus MN № 0055189 nömrəli, baş leytenant Axundzadə Ələkbər İbrahim oğluna məxsus MN № 0053638 nömrəli, leytenant Abayev Ruslan Cəlal oğlunun A-018265 şəxsi nömrəli zabitin şəxsi vəsiqəsi və baş miçman İsmayılov Şahmalı İbrahim oğluna məxsus SQ № 0024444 nömrəli, miçman Nərimanov Türkay Tahir oğluna məxsus SQ № 0010571 nömrəli, miçman Məmmədov Rahil Sahibəli oğluna məxsus SQ № 0022792 nömrəli, miçman Kamilzadə Vüsal Ramiz oğluna məxsus SQ № 0014980 nömrəli, miçman Bəşirov Vüsal Telman oğluna məxsus SQ № 0020158 nömrəli gizirin (miçmanın) şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor vəzifəsini icra edən kapitan Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Bəxtiyar ƏLİYEV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 723
Nüsxə 4044